# Ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiramla

■ ***Tərtər Rayon Gənclər Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Tərtər Rayon İcra Hakimiyyəti və Azərbaycan Milli Kitabxanası birgə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları" mövzusunda sərgi-konfrans keçirmişdir.***



Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin Tərtər şəhərindəki abidəsini ziyarət etdikdən sonra həmçinin ümummilli liderin Milli Kitabxanada 3 iyun 1995-ci il tarixdə çıxışına dair qısa videofilmin nümayişi olmuşdur.

Konfransda rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Bakı Dövlət Universitetinin kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, fəlsəfə doktoru Rasim Süleymanov və Tərtər rayonunun mədəniyyət işçiləri, ziyalılar iştirak etmişlər.

Milli Kitabxananın direktoru Kərim Tahirov konfransda "Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti" mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Tərtər Rayon Mərkəzi Kitabxanasının direktoru İlduzə Qurbanova, Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusifova və Tərtər rayon Umudlu kənd tam orta məktəbinin direktoru Zabil Zeynalov öz çıxışlarında ulu öndərin Azərbaycan mədəniyyətinə verdiyi töhfələrdən geniş bəhs etmişlər.

Konfransın sonunda kitab sərgisinə baxış keçirilmişdir. Ulu öndərin Milli Kitabxanaya hədiyyə etdiyi kitablardan ibarət sərgi tədbir iştirakçılarının böyük marağına səbəb olmuşdur.

***M.MÜKƏRRƏMOĞLU, "Xalq qəzeti"***